İPƏK YOLU, No.1, 2024, səh.128-140
https://doi.org/10.30546/1810-911X.2024.1.128

# QEYRİ-NEFT SEKTORUNDA SAHİBKARLIQ SUBYEKTLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİ STRATEGİYASININ İŞLƏNİLMƏSİ

**Q.S. Süleymanov, N.N. Abdullayeva, T.Ə. Şeydai**

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU), Bakı, Azərbaycan
e-mail: suleymanov.q.s@gmail.com

**Xülasə.** Məqalədə qeyri-neft sektorunda sahibkarlıq subyektlərinin mövcud vəziyyəti, problemlər və həll yolları tədqiq edilir. Bu məqsədlə son beş ildə qeyri-neft sektorunun ÜDM-də payı tədqiq edilir, eyni zamanda sahibkarlıq subyektlərinin makroiqtisadi göstəriciləri, sahibkarlıq subyektləri üzrə yaradılmış əlavə dəyərin həcmi, sahibkarlıq subyektləri üzrə əsas kapitala yönəldilmiş investisiyaların həcmi təhlil edilir. Məqalədə qeyri-neft sektorunda sahibkarlıq fəaliyyətinə təsir edən subyektlərin strukturu, sahibkarlıq fəaliyyətinə təsir edən amillər, sahibkarlıq subyektinin iqtisadi fəaliyyət istiqamətləri elmi cəhətdən əsaslandırılmışdır.

**Açar sözlər:** Qeyri-neft sektoru, sahibkarlıq subyektləri, iqtisadi göstəricilər, investisiya, xarici əlaqələr.

## CREATING THE STRATEGY FOR THE DEVELOPMENT OF BUSINESS SUBJECTS IN THE NON-OIL SECTOR

**G.S. Suleymanov, N.N. Abdullayeva, T.A. Sheydai**
*Azerbaijan State Oil and Industry University, Baku, Azerbaijan*

**Abstract.** The current situation, problems and solutions of business entities in the non-oil sector are studied in the article. For this purpose, the share of the non-oil sector in the GDP is studied in the last five years, and at the same time, the macroeconomic indicators of business entities, the amount of added value created by business entities, and the volume of investments directed to the main capital of business entities are analyzed. In the article, the structure of subjects affecting entrepreneurial activity in the non-oil sector, factors affecting entrepreneurial activity, directions of economic activity of entrepreneurial subject are scientifically substantiated.
**Keywords:** Non-oil sector, business entities, economic indicators, investment, foreign relations.

## РАЗРАБОТКА СТРАТЕГИИ РАЗВИТИЯ СУБЪЕКТОВ БИЗНЕСА В НЕНЕФТЯНОМ СЕКТОРЕ

**Г.С. Сулейманов, Н.Н. Абдуллаева, Т.А. Шейдаи**
*Азербайджанский Государственный Университет Нефти и Промышленности, Баку, Азербайджан*

**Резюме.** В статье исследована текущая ситуация, проблемы и пути решения хозяйствующих субъектов ненефтяного сектора. Для этого изучается доля ненефтяного сектора в ВВП за последние пять лет, а также макроэкономические показатели субъектов хозяйствования, объем добавленной стоимости, созданной субъектами хозяйствования, инвестиции, направленные в основной капитал субъектов хозяйствования. В статье научно обоснована структура субъектов, влияющих на предпринимательскую деятельность в ненефтяном секторе, факторы, влияющие на предпринимательскую деятельность, направления экономической деятельности субъекта предпринимательства.
**Ключевые слова:** Ненефтяной сектор, субъекты хозяйствования, экономические показатели, инвестиции, международные связи.

## 1. Giriş

Dünyada baş verən müxtəlif proseslər, enerji dəyərlərinin kəskin şəkildə aşağı düşməsinə səbəb olur ki, nəticə etibari ilə qeyri-neft sahələrinə olan tələbat artır, bu da öz

növbəsində investorların investisiya qoyuluşlarına birbaşa təsir göstərir. Dünyada baş verən bu kimi dəyişikliklər Azərbaycan Respublikasının iqtisadiyyatına da təsir etmişdir. Məlum olduğu kimi, Sovet Sosialist Respublikalar İttifaqı dağıldıqdan sonra Azərbaycan müstəqil şəkildə öz iqtisadiyyatında bir sıra tədbirlər görməyə başlamışdır. Son 10 illiyə nəzər salsaq, neftin dəyərinin aşağı düşməsi, ixrac gücünün böyük bir qismi neft və neft məhsullarından ibarət olan ölkəmizdə bir sıra mənfi hallara səbəb olmuşdur. İxracın qismən zəif olması Azərbaycana xarici valyuta axınını aşağı saldı və nəticədə devalvasiya yaşandı. Bu isə onu göstərdi ki, Azərbaycan iqtisadiyyatı neft və neft məhsulları üzərinə qurulmuşdur və qeyri-neft sahəsində həm yerli, həm də xarici investisiyanın payı olduqca azdır.

Hal-hazırda dünya ölkələrinin əksəriyyəti üçün keçərli olan əsas məsələ iqtisadi inkişafın təmin edilməsi məqsədi ilə qeyri-neft sektoruna investisiya qoyuluşlarının təmin edilməsidir. Araşdırmalar onu göstərir ki, son 50 ildə böyük beşlik ölkələrində iqtisadiyyatın inkişafında başlıca amil investisiya qoyuluşlarındakı aktivliklərdir. Belə ki, birbaşa xarici investisiyanın cəlbi hər bir ölkənin iqtisadiyyatına müsbət yöndə təsir edir. Qeyd etmək lazımdır ki, qloballaşma dövründə beynəlxalq iqtisadi inteqrasiyanın yüksək səviyyəyə qalxmasında birbaşa xarici investisiyalar inkar olunmaz bir funksiyanı icra edir. Birbaşa xarici investisiyanın, 2 aspekti mövcuddur ki, bunlar, iqtisadi və qeyriiqtisadi investisiyalardır. Bu səbəbdən, bir çox ölkələr bu məsələyə sırf iqtisadi baxımdan yanaşır və birbaşa xarici investisiyanı dövlət siyasəti kimi mənimsəyib liberal formalı rejim izləmək istəsələr belə, geniş miqyasda xarici investisiyaya qarşı duyulan düşmənçilik siyasətinə görə geri addım atmaq məcburiyyətində qalırlar. Cəmiyyətin bu cür mənfi münasibətində xarici investisiyaların tarixi inkişafı önəmli rol oynamaqdadır.

Ölkəmizə nəzər salsaq, investisiyanın əsasını neft sektoru təşkil etsə də son zamanlar qeyri-neft sektoruna investisiya qoyuluşunda xeyli müsbət irəliləyişlər müşahidə edilir. Belə ki, iqtisadi inkişafin sürətini artırmaq, bazar iqtisadiyyatının təkmil xüsusiyyətlərini tətbiq etmək üçün yerli və xarici investorların əhəmiyyəti çox böyükdür. Dövlət bir çox halda investorlara vergi, gömrük güzəştləri, o cümlədən müxtəlif rüsumlardan azadolma kimi imkanlar təqdim edir. Həmçinin onların ixrac fəaliyyətinə təşkilati dəstək də bu tənzimlənmənin tərkib hissəsi kimi qiymətləndirilə bilər.

## 2. Qeyri-neft sektorunun mövcud vəziyyəti: problemlər və perspektivlər

Yanacaq kompleksinin ölkəmizin milli iqtisadiyyatında sürətli inkişafına baxmayaraq, qeyri-neft sahələrində iqtisadi artımın zəif olmasını şərtləndirən bir sıra amillər mövcuddur. Bu amilləri aşağıdakı kimi təsnif etmək olar (Sxem 1):




**Sxem 1.** Qeyri-neft sahələrində iqtisadi artımın zəif olmasını şərtləndirən amillər
**Mənbə:** [13, 5, 16]. Müəllif tərəfindən hazırlanıb

Bu amillərin mövcud olmasına baxmayaraq ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi üzrə həyata keçirilən dövlət siyasətinin uğurlu nəticəsidir ki, son beş ildə ÜDM-də qeyri-neft sektorunun payı artmışdır (Diaqram 1) [2; 12].

Diaqramdan aydın olur ki, son 5 il üzrə qeyri-neft sektorunun ÜDM-də payı (milyon manatla): 2018-ci ildə - 41662; 2019-cu ildə - 44481.8; 2020-ci ildə - 45312.2; 2021-ci ildə - 51122.2; 2022-ci ildə - 61619.5 olmuşdur. Eyni zamanda 2022-2023–ci illərin yanvar-fevral ayları üçün ÜDM miqdarı (mln manat) uyğun olaraq aşağıdakı cədvəl 1-də göstərilmişdir.




**Diaqram 1.** 2018-2022-ci illər üzrə qeyri-neft sektorunun ÜDM-də miqdarı
**Mənbə:** https://www.stat.gov.az/menu/4/e-reports/

**Cədvəl 1.** 2022-2023 yanvar-fevral ayları üçün ÜDM miqdarı (mln manat)

| **2022 (yanvar-fevral)** | **2023 (yanvar-fevral)** |
|---|---|
| 9240,2 | 10541,1 |

**Mənbə:** https://www.stat.gov.az/menu/4/e-reports/

Belə ki, 2023-cü ilin yanvar-fevral aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 19,8 milyard manatlıq və ya 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,4 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir. Bu dövrdə iqtisadiyyatın neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyər 3,6 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 4,6 faiz artmışdır. Əlavə dəyərin 50,3 faizi sənaye, 8,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 5,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,8 faizi tikinti, 2,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatlı və balıqçılıq, 1,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,5 faizi informasiya və rabitə sahələrində, 16,9 faizi isə digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 9,0 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 1955,6 manata bərabər olmuşdur [12].

Bunun nəticəsidir ki, ÜDM-də ixracın payı daim artmaqdadır. Bunun dövlət üçün də müsbət tərəfləri var. İxracın artması dayanıqlılığın artmasına və milli istehsalın həcminə kömək edir. Eyni zamanda müsbət ödəniş balansını təmin edir. Belə ki, qeyri-neft sektorunda kiçik və orta sahibkarlıq üçün satış həcmlərinin artması, bazar şəraitinin dəyişməsi risklərinin azaldılması, maliyyə sabitliyinin yaxşılaşdırılması, dövlətdən subsidiyaların alınması və istehsal gücünün istifadəsini optimallaşdırmaq kimi bir sıra üstünlüklər mövcuddur.

## 3. Qeyri-neft sektorunda sahibkarlıq subyektlərinin mövcud vəziyyəti: problemlər və perspektivlər

Cədvəl 2-də 2018-2021-ci illər üzrə Azərbaycandakı sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəriciləri təhlil olunmuşdur.

2020-ci ildə 2019-cu il ilə müqayisədə sahibkarlıq subyektləri tərəfindən yaradılmış əlavə dəyərin və əsas kapitala investisiyaların həcmi azalıb, sahibkarlıq fəallığı isə artıb. Eyni zamanda, sahibkarlıq sahəsində çalışan işçilərin sayı 2020-ci ildə 2019-cu ilə nisbətən 16,5 min nəfər, orta aylıq nominal əmək haqqı isə 81,3 manat artmışdır. 2021-ci ildə isə 2020-ci il ilə nisbətdə yaradılmış əlavə dəyərin həcmi 27,6% təşkil etmişdir. Digər göstəricilər üzrə də davamlı olaraq artım tempi diqqət çəkir [12].

**Cədvəl 2.** Sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəriciləri

| | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|
| Əlavə dəyər, milyon manat | 9836,6 | 11071,7 | 10941,0 | 13956,1 |
| İşçilərin sayı, min nəfər | 283,4 | 332,2 | 348,7 | 357,8 |
| Orta aylıq nominal əməkhaqqı, manat | 445,3 | 531,0 | 612,3 | 632,2 |
| Əsas kapitala investisiyalar, milyon manat | 6953,0 | 3 422,2 | 2 674,1 | 3387,7 |

**Mənbə:** https://www.stat.gov.az/menu/4/e-reports/

Aşağıda ayrı-ayrı sahibkarlıq subyektləri üzrə yaradılmış əlavə dəyərin həcmi əyani şəkildə əks olunmuşdur (Diaqram 2).




**Diaqram 2.** Sahibkarlıq Subyektləri üzrə əlavə dəyərin həcmi
**Mənbə:** https://www.stat.gov.az/menu/4/e-reports/

Göründüyü kimi 2020-ci ildə sahibkarlıq subyektləri üzrə əlavə dəyərin 4867,9 milyon manatı və ya 44,5%-i orta, 40,7%-i mikro, 14,8%-i isə kiçik sahibkarlıq subyektlərinin payına düşmüşdür. 2020-ci ildə isə 2019-cu il ilə müqayisədə kiçik və orta sahibkarlıq üzrə yaradılan əlavə dəyər yüksəlib, mikrosahibkarlıq üzrə isə azalıb. 2021-ci ilə gəldikdə, sahibkarlıq subyektləri üzrə yaradılmış əlavə dəyərin həcmi əvvəlki illərə nisbətdə 11,8% artıb [17; 12].

Azərbaycanda 2018-2021-ci illər üzrə sahibkarlıq subyektlərinin əsas kapitala investisiyalarının həcmi baxılmışdır (Diaqram 3).




**Diaqram 3.** Sahibkarlıq subyektləri üzrə əsas kapitala investisiyaların həcmi
**Mənbə:** https://www.stat.gov.az/menu/4/e-reports/

2021-ci ildə 2020-ci il ilə müqayisədə mikrosahibkarlıq, kiçik sahibkarlıq subyektləri üzrə əsas kapitala investisiyaların həcmi artmış, lakin orta sahibkarlıq subyektləri üzrə isə azalma baş vermişdir [13; 17].

Qeyri-neft sektorunda fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinin ixrac potensialının artırılması və onların xarici ticarət əlaqələrinin dərinləşməsi üçün sertifikatlaşdırma və xidmətlərin səviyyəsinə olan tələblərinin artırılması vacibdir.

Qeyri-neft sektorunda sahibkarlıq subyektlərinin fəaliyyətinə təsir göstərən komponentlərin tərkib hissələrini isə aşağıdakı kimi ümumiləşdirmək olar (sxem 2):




**Sxem 2.** Qeyri-neft sektorunda sahibkarlıq fəaliyyətinə təsir edən subyektlərin strukturu
**Mənbə:** [13; 3; 5; 16]. Müəllif tərəfindən hazırlanıb

Qeyri-neft sektorunda fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinin ixracatda iştirak payını məhsullar üzrə araşdırsaq belə nəticəyə gəlirik: xammal, yarımfabrikat məhsullar, avadanlıqlar, qablaşdırma, həmçinin istehlak malları və ərzaq, ofis avadanlığı, mebel, tütün məmulatları və digər sahələrdə irəliləyişlər üçün geniş imkanlar mövcuddur [18; 15].

Araşdırmalar göstərdi ki, qeyri-neft sektorunda sahibkarlıq subyektlərinin fəaliyyətinə bir sıra elementlər təsir göstərir. Həmin elementlərin sahibkarlıq subyektləri ilə qarşılıqlı əlaqə mexanizmini aşağıdakı kimi əks etdirə bilərik (sxem 3).




**Sxem 3.** Qeyri-neft sektorunda sahibkarlıq fəaliyyətinə təsir edən subyektlər
**Mənbə:** [13; 3; 5; 16]. Müəllif tərəfindən hazırlanıb

Bununla yanaşı, qloballaşan müasir dövrdə kiçik və orta sahibkarlıq subyektlərinin rəqabət qabiliyyətinə təsir edən bir sıra subyektiv amillər [17; 11]: subyektlərin idarəetmə qrupuna və həmçinin rəqabətqabiliyyətliliyinin təmin edilməsi ilə əlaqədar işlərin məqsədəuyğunluğuna bağlı olan amillər mövcuddur. Əmtəə və xidmətlərin istehlakçı xüsusiyyətləri; sahibkarlıq subyektlərinin istehsal və rəqabət potensialı; resurslara sahibliyin səviyyəsi və ondan istifadə etmək bacarığı; hədəf bazarların xüsusiyyətlərinə uyğunlaşa bilmə və istehlakçı davranışının müəyyən edilməsi kimi faktorlar da kiçik və orta sahibkarlıq subyektlərinin rəqabət qabiliyyətinə birbaşa olaraq təsir edir.

Dünya təcrübəsinə görə, kiçik və orta sahibkarlıq subyektləri eyni zamanda inkişaf etməkdə olan ölkələrin də makroiqtisadi səhnəsində önəmli rola malikdirlər. Lakin zəif inkişaf edən ölkələrin iqtisadiyyatında kiçik və orta sahibkarlıq subyektlərinin payı həm Ümumi Daxili Məhsulun istehsalında, həm də əhalinin məşğulluğunun təmin edilməsində kiçik paya sahibdir [3; 14]. Belə ki, inkişaf etmiş ölkələrdə ÜDM istehsalında kiçik və orta sahibkarlığın faydası 50%-ə yaxın olduğu halda, bu göstərici orta inkişaf səviyyəsinə malik olan ölkələrdə 40%, zəif xarakterli inkişaf müşahidə edilən ölkələrdə isə 30% miqdarında qeyd olunub.

## 4. Qeyri-neft sektorunun inkişaf etdirilməsinin innovativ mexanizmləri

Beynəlxalq təcrübəyə əsaslanaraq qeyri-neft sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektinin xarakteristik əlamətlərini aşağıdakı ardıcıllıqla göstərə bilərik (Cədvəl 3) [6]:

**Cədvəl 3.** Sahibkarlıq subyektinin xarakteristik əlamətləri

| | |
|---|---|
| 1. | Unikallıq və gözlənilməzlik, azad iradənin mövcudluğu; |
| 2. | Dəyişən ətraf mühit şəraitinə uyğunlaşmaq və çağırışlara cavab vermək bacarığı; |
| 3. | Məqsəd qoymaq və məqsədə çatmaq üçün müxtəlif variantlar hazırlamaq bacarığı; |
| 4. | Xarici və daxili dağıdıcı meyillərə müqavimət göstərmək bacarığı; |
| 5. | Özünü təşkil etmək və özünü inkişaf etdirmək bacarığı; |

**Mənbə:** [3; 15]. Müəllif tərəfindən hazırlanıb

Yenə də, dünya təcrübəsinə əsaslanaraq qeyri-neft sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin iqtisadi fəaliyyətinin aşağıdakı istiqamətlər üzrə aparılmasını irəli sürmək olar (Sxem 4):

Sxemdə göstərilən sahibkarlıq subyetlərinin iqtisadi fəaliyyət növləri Azərbaycan Respublikasında mövcud olan sahibkarlıq subyektləri üçün xarakterikdir. Əməkdaşlığın və fəaliyyət tərzinin seçilməsi isə sahibkarlıq subyektinin perspektiv imkanlarından, fəaliyyət istiqamətlərindən asılıdır. Bundan əlavə təsərrüfat subyektlərinin xarici iqtisadi fəaliyyəti bir sıra digər amillərin təsirinə məruz qalır. Sözü gedən amillər özünəməxsus şəkildə iqtisadi suubyektlərə təsir göstərərək beynəlxalq bazarın xüsusiyyətlərini ifadə etməyə çalışır [4; 9].




**Sxem 4.** Qeyri-neft sektorunda sahibkarlıq subyektlərinin iqtisadi fəaliyyət istiqamətləri
**Mənbə:** [13; 5; 15]. Müəllif tərəfindən hazırlanıb

Qeyri-neft sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin xarici iqtisadi əlaqələri aşağıdakı istiqamətləri və formaları əhatə edir (Sxem 5).




**Sxem 5.** Qeyri-neft sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin xarici iqtisadi əlaqələr
**Mənbə:** [3; 5; 16]. Müəllif tərəfindən hazırlanıb

Ümumiyyətlə, qeyri-neft sektorunda xarici iqtisadi fəaliyyətin tənzimlənməsi sistemi beş səviyyədə fəaliyyət göstərir (Sxem 6) [5; 1]:




**Sxem 6.** Qeyri-neft sektorunda xarici iqtisadi əlaqələrin tənzimlənməsinin səviyyələri
**Mənbə:** [13; 14; 16]. Müəllif tərəfindən hazırlanıb

Sxemdən görünür ki, xarici iqtisadi və ticarət fəaliyyətinin dövlət tənzimlənməsi kriteriyalarından asılı olaraq o, bir sıra metodların köməyi ilə həyata keçirilir. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi metodları, həmçinin onun tənzimlənməsi sisteminə daxildir. Bu metodlara aşağıdakıları aiddir (Sxem 7) [19]:




**Sxem 7.** Qeyri-neft sektorunda xarici iqtisadi fəaliyyətin tənzimləməsi metodları
**Mənbə:** [14; 15]. Müəllif tərəfindən hazırlanıb

Qeyri neft sektorunda ixrac edilən məbləğin formalaşdırılmasında dövlətlə yanaşı özəl iqtisadi sahibkarlıq subyektləri də iştirak etmişlər. 2023-cü ildə qeyri-neft sektoru üzrə qeyri-dövlət ixracatçı şirkətlərin və fiziki şəxslərin siyahısında ilk yerləri tutan iqtisadi subyektlər aşağıdakılardır (Cədvəl 4) [10; 7]:

**Cədvəl 4.** İqtisadi subyektlər

| | |
|---|---|
| - | "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi; |
| - | "Baku Steel Company" MMC; |
| - | "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC; |
| - | "MKT İstehsalat Kommersiya" MMC, |
| - | "Sun Food" MMC; |
| - | "CTS-Agro" MMC; |
| - | "Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC, |
| - | "Food Export Şəmkir" MMC və digərləri |

**Mənbə:** [2; 5; 8]. Müəllif tərəfindən hazırlanıb

## 6. Qeyri-neft sektorunda sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi strategiyası

Ölkəmizin qeyri-neft emalı sənayesində sahibkarlıq fəaliyyətinin reallaşdırılması üzrə Biznes Strategiyasının tərkib elementlərini aşağıdakı kimi göstərmək olar (Sxem 8) [8]:

**Sxem 8.** Qeyr-neft sektorunda sahibkarlıq strategisasının içlənməsi alqoritmi




**Mənbə:** [13; 3; 14; 15; 16]. Müəllif tərəfindən hazırlanıb

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin də dediyi kimi biz sənaye sahələrində ehtiyatlardan səmərli istifadə etməliyik. Araşdırmalar onu deməyə imkan verir ki, ölkəmizdə bir sıra məhsulların istehsal edilməsi məqsədi ilə müxtəlif sahibkarlıq subyektlərinin yaradılmasına və əvvəllər mövcud olanların bərpa edilməsinə ehtiyac var [20; 21]. Bu ilk

növbədə mövcud tələbi ödəməklə ixrac yönümlü fəaliyyət təşkil etmək üçün vacibdir. Təcrübə göstərir, bir sıra sferalarda sahibkarlıq subyektlərinə dəstəyin artrılması onların ixrac potensialının artırılmasına təkan verir və aşağıda göstərilən sahələrdə müvafiq perspektivlərin reallaşdırılması üçün əsas yaradır (Cədvəl 5):

**Cədvəl 5.** Qeyri-neft sektoru üzrə sahələr

| | |
|---|---|
| - | Heyvandarlıq və bitkiçilik məhsulları; |
| - | Ərzaq məmulatları; |
| - | Kimya sənayesi materialları; |
| - | Emal edilmiş gön dəri məhsulları; |
| - | Toxuculuq sənayesi məhsulları; |
| - | Tikinti materialları; |
| - | Az qiymətli metallar və onlardan hazırlanan məmulatlar; |
| - | Bəzi maşın, mexanizm və eletrotexniki avadanlıqlar və s. |

**Mənbə:** [14; 15]. Müəllif tərəfindən hazırlanıb

**Nəticə və təkliflər.** Müasir şəraitdə ölkəmizdə qeyri-neft sənayesində sahibkarlığın inkişaf etdirilməsi perspektivləri və imkanlarını yüksək qiymətləndirməklə yanaşı, bu istiqamətdə sahibkarlığın rolu ilə bağlı yanaşmalara xüsusi diqqət yetirilməli, bununla bağlı vacib məsələlərin və mexanizmlərin əsaslandırılmasını obyektiv zərurət kimi qiymətləndirilməlidir. Bu istiqamətdə qeyri-neft sənayesində sahibkarlığın inkişaf etidirilməsində kompleks və sistemli yanaşmanı vacib hesab etmək olar. Qlobal transformasiyalar erasında qeyri-neft sənayesində sahibkarlığın rolunun gücləndirilməsi və bununla bağlı rolunun obyektiv olaraq fundamental şəkildə baxılması və qiymətləndirilməsi nöqteyi-nəzərindən dünya səviyyəsində bu istiqamətdə mütərəqqi təcrübələrə diqqət yetirilir, eyni zamanda onlar dərindən öyrənilir və ümumiləşdirilir. Dünyanın bir sıra ölkələrində, hətta qeyri-neft sənayesi güclü olmayan ölkələrdə belə qeyri-neft sənayesinin inkişafına xüsusi önəm verilir. Belə ki, qeyri-neft sahəsi çox gəlir gətirən bir sahə kimi qiymətləndirilir. Kiçik və orta özəl subyektlərin inkişaf etdirilməsi, qeyri-neft sənayesində sahibkarlıq fəaliyyətinin gücləndirilməsi ölkəyə daha çox səmərə verə bilər. Buna görə də, qeyri-neft sənayesinin inkişaf etdirilməsi və xammal təminatı ilə bağlı problemləri həll edilməklə, ölkəmizdə bu sahədə vəziyyətin dəyişdirilməsi üçün xeyli işlərin görülməsi vacibdir.

Qeyri-neft sektorunda kiçik və orta sahibkarlar üçün əlverişli şəraitin yaradılması məqsədilə aşağıdakılar zəruri hesab olunur:

1. Dövlət üzrə rəsmi qeydiyyat, vergi və mühasibat uçotu prosedurlarının asanlaşdırılması;

2. Enerji infrastrukturu üzrə obyektlərə və kommunal xidmət prosedurunun sadələşdirilməsi və qiymətlərin ucuzlaşdırılması;

3. Dövlət və bələdiyyə mülkiyyəti hesab edilən daşınmaz əmlak obyektlərinin təmin edilməsi;

4. Biznesə başlamaq üçün maksimum məlumat açıqlığı, o cümlədən vahid internet portalında dövlət dəstəyinin əldə edilməsi imkanları.

Qeyri-neft sektoruna gəldikdə bu sahədə sahibkarlığın inkişaf etdirilməsi məsələlərinə xüsusi diqqət yetirilməlidir:

- İlk olaraq qeyri-neft sektorunda sahibkarlığın inkişaf istiqamətləri müəyyənləşdirilməli və aydın şəkildə sahibkarların nəzərinə çatdırılmalıdır.
- Bu sektora sahibkarlığın stimullaşdırılması mexanizmləri və dövlət dəstəyi mexanizmləri tətbiq olunmalıdır.
- Sahibkarlığın inkişaf etdirilməsi üçün maliyyə-kredit mexanizmləri tətbiq olunmalı, güzəştli və əlçatan kredit resursları ayrılmalı, eyni zamanda sığorta təminatına ciddi önəm verilməlidir.

## Ədəbiyyat


1. Aliyev Sh.T. (17-18 december 2020), Problems of diversification of Azerbaijani economy. In Modern Conditions VIII International Scientific and Practical Conference Current Problems of Social and Labor Relations. Makhachkala, 38-44.
2. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi (2016), Bakı.
3. Əliyev A.N. (2020), Sahibkarlıq fəaliyyətinin konseptual əsasları və xüsusiyyətləri. Kooperasiya Elmi-Praktiki Jurnalı, Vol.4, No.59, 77-82.
4. Əliyev Ş.T. (2018), Azərbaycan İqtisadiyyatı. Sumqayıt SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 376.
5. Əliyev Ş.T. (2019), Azərbaycanda qeyri-neft sənayesinin şaxələndirilməsi və ixrac potensialının artırılması istiqamətləri. Audit, No.4, Cild 26, 61-73.
6. Əliyev Ş.T. (2022), Azad İqtisadi Zonaların İnkişafının Aktual Aspektləri. Monoqrafiya. Sumqayıt: SDU-nun redaksiya və nəşr işləri şöbəsi, 422.
7. http://customs.gov.az/ Dövlət Gömrük Komitəsinin rəsmi saytı
8. https://president.az/ AR Prezidentinin rəsmi saytı
9. Khankishiyev F.X. (2021), Ways to increase the economic efficiency of individual entrepreneurship in the petrochemical industry. Audit, Vol.1, No.31, 95-105.
10. Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (2017), Bakı.
11. Knight F.H. (1921), Risk, Uncertainty and Profit. Boston: Houghton, Mifflin, 388.
12. Qarayev R. (2019), Kiçik və orta sahibkarlığın inkişafında biznes mühitinin yaxşılaşdırılmasının strateji əhəmiyyəti. Geostrategiya Jurnalı, Vol.4, No.52, 93-97.

13. Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2016), Bakı.
14. Məmmədov E.Y. (2017), Milli iqtisadiyyatın müasir problemləri və onların həlli yolları. AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası. Bakı, 4-7.
15. Sahibkarlığın stimullaşdırılması, yerli istehsala dəstək, iqtisadi hədəflər (7 iyul 2020). https://vergiler.az/news/taxes/9390.html
16. Tağıyev V.Q. (2021), Müasir dövrdə sahibkarlıq fəaliyyətinin inkişaf istiqamətləri və prioritetləri. AMEA-nın Xəbərləri jurnalı, İqtisadiyyat seriyası, Bakı, No.3, 108-117.
17. Tağıyev V.Q. Azərbaycanın neft emalı sənayesində sahibkarlığın rolunun qiymətləndirilməsi. Dissertasiya işi.
18. Габдуллина Г.К., Вячина И.Н., Майорова О.А. (2022). Факторы обеспечения конкурентоспособности нефтеперерабатывающих предприятий. Журнал Прикладных Исследований, Том.2, No.5, 146-154.
19. Гаффарова М.Р. (2020), Стратегия развития нефтехимической промышленности США: сравнение с Россией. Научный Электронный Журнал Меридиан, Vol.3, No.37, 567-569.
20. Ефремова Л.И., Курганов А.Н. (2016), Методологические подходы к совершенствованию бизнес-процессов предприятия. Системное Управление, No.2, 11-11. http://sisupr.mrsu.ru/2016-2/PDF/Efremova.pdf
21. Золотухина Т.В. (2014), Организационно-экономическое обеспечение модернизации предприятий нефтеперерабатывающей. Дис. Нижегор. гос. ун-т им. НИ Лобачевского, 27.